5 fevral / 2021

# A QARDAŞ

*Düşmən üzərində parlaq qələbə münasibəti ilə Ali baş komandan, cənab İlham Əliyevə*

A qardaş, nə qədər ulusan ulu,
Xəyalı tərtəmiz, iqbalı nurlu,
Keçdin bu həyatda mübariz yolu,
Qeyrətinə qurban olum, a qardaş.
Əyilməz-vüqarlı insan olmusan,
Hər kəsin dərdinə yanan olmusan,
Çarəsizə-çarə tapan olmusan,
Qeyrətinə qurban olum, a qardaş.
Qəlbində yaşayır el məhəbbəti,
Zəhmətlə qazandın bu səadəti,
Sizə tükənməzdi elin hörməti,
Qeyrətinə qurban olum, a qardaş.
Sizsiz bu millətin parlaq ulduzu,
Sizlə gerçək olur hər ülvi arzu,
Tanrı nurlu etsin Sizin yolunuzu,
Qeyrətinə qurban olum, a qardaş.
Ürəkdən sevinib deyir:-Bu millət,
Bizimkidir bu işıqlı gələcək,
Gülbacı çox deyib, yenə deyəcək:-
Qeyrətinə qurban olum, a qardaş!

**Kərbəlayi Gülbacı xanım ƏLİYEVA,**
**Azərbaycan Yazıçılar Birliyinin**
**və Azərbaycan Jurnalistlər**
**birliyinin üzvü.**